

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 191 (23.833)

15 oktyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi” publik hüquqi şəxsin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizatın formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, eləcə də daxili bazarı qısamüddətli mənfi təsirlərdən qorumaq məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Meyvə Tərəvəz Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında “Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi” publik hüquqi şəxs (bundan sonra-Agentlik) yaradılsın.

2. Dövlət Taxıl Fondu Agentliyin sərəncamına verilsin.

3. Müəyyən edilsin ki, Agentlik dövlət və səfərbərlik ehtiyatlarının yaradılması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə strateji əhəmiyyətli mallarla təchizatı təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində tədbirlər görən publik hüquqi şəxsdir.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Agentliyin nizamnaməsinin və strukturunun layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 oktyabr 2021-ci il*

# Naxçıvanda yeni qapalı suvarma şəbəkəsi qurulub





***“Kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir... Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm də ixracdır”***, – deyən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılır. Muxtar respublikada torpaq ehtiyatlarından səmərəli istifadə olunur, meliorativ tədbirlərin həcmi genişləndirilir, mütərəqqi suvarma şəbəkələri qurularaq istifadəyə verilir. Uzun müddət suvarılmayan torpaq sahələrindən bol məhsul götürülür, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılır.

Oktyabrın 14-də “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin Kəngərli rayonundakı əkin sahələrində tikilən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat verərək demişdir ki, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin 364 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi yerli mütəxəssislər tərəfindən aparılmışdır. Araz su anbarından götürülən su nasoslar vasitəsilə Böyükdüz kəndi ərazisində yerləşən hovuza vurulur və öz axını ilə müxtəlif diametrli borularla sahələrə verilir. Ərazidə 3800 metr ana xətt çəkilmiş və 34,7 kilometr paylayıcı boru xətti, 323 hidrant, 44 siyirtmə və 28 suboşaldıcı quraşdırılmışdır. Ərazidə qrunt sularını kənarlaşdırmaq üçün diametri 300 millimetr olan borularla 5590 metr qapalı drenaj xətti və 5250 metr açıq kollektor çəkilmişdir. Ümumilikdə, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin 2069 hektar əkin sahəsində qapalı suvarma şəbəkəsi qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə məlumat vermişdir ki, Kəngərli rayonunda əkinəyararlı torpaq sahələrinin 9293 hektarı və ya 97 faizi suvarılandır. Həmin torpaqlardan dövlət mülkiyyətində olan 2069 hektarı “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin istifadəsinə verilmiş və yerquruluşu xəritəsi hazırlanmışdır. Ərazidə ibtidai boz, boz-çəmən, allüvial-çəmən torpaqlar daha geniş yayılmışdır. Arazboyu zonada səthə yaxın qrunt sularının, ətraf duz dağlarının təsiri nəticəsində şoranlaşmış torpaqlara da təsadüf olunur. Aqrotexniki qaydalara ciddi riayət etməklə əkin aparılması, normalara uyğun üzvi və mineral gübrələrin verilməsi, suvarma normalarına əməl edilməsi nəticəsində ərazidəki torpaqların daha səmərəli istifadə olunması təmin olunmuş və münbitlik göstəriciləri yaxşılaşmışdır.



Sonra Ali Məclisin Sədri muxtar respublikada payızlıq taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 2022-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 30 min hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi nəzərdə tutulur. Payızlıq taxıl əkini ilə əlaqədar şum və səpin aparmaq üçün 771 təkərli, 67 tırtıllı, 118 taxılsəpən, 38 toxumtəmizləyən, 403 kotan, 287 qoşqu, 78 çizel və şırımaçan texnika saz vəziyyətə gətirilmişdir. Cari ildə bütün taxıl sahələrinin şırım üsulu ilə əkilməsi nəzərdə tutulur. Bu məqsədlə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində 7 və fiziki şəxslərdə olan 18 toxumsəpənə pulsuz olaraq şırımaçan aqreqatlar qoşulmuşdur. Hazırda muxtar respublika üzrə 15 min 118 hektar sahədə şum aparılmışdır ki, onun da 221 hektarı dəmyə sahələrdir. “Naxçıvan Toxumçuluq Mərkəzi”ndə 1200 hektar sahədə payızlıq taxıl əkini aparılması nəzərdə tutulmuş, 1065 hektarda şum, 300 hektardan artıq ərazidə isə səpin aparılmışdır. Mərkəzdə 88 texnika və texnoloji avadanlıq mövcuddur. Səpində 15 maşın, texnika və digər kənd təsərrüfatı aqreqatlarından istifadə olunur.

Payızlıq taxıl əkini zamanı hər hektara 180-250 kiloqram toxum səpilir. Bunun üçün muxtar respublikanın torpaq mülkiyyətçilərinə 6 min 500 ton arpa və buğda toxumları tələb olunur. Tələb olunan toxum “Naxçıvan Toxumçuluq Mərkəzi”ndə, “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında və torpaq mülkiyyətçilərində mövcuddur. “Naxçıvan Toxumçuluq Mərkəzi”ndə 320, “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatlarında 128 ton buğda və arpa toxumları vardır. Əkin zamanı muxtar respublikanın torpaq iqlim şəraitinə uyğun sınaqdan keçirilmiş reproduksiyalı “Qobustan”, “Fatimə”, “Quality”, “Quadilop”, “Dağ-daş”, “Ceyhan-99”, “Bezostya-1”, “Konya”, “Bayraktar”, “Əhmədağa”, “Əkizlər” buğda və “Naxçıvandəni”, “Cəlilabad-19”, “Qarabağ-22” arpa və buğda sortlarından istifadə edilir.

Toxumların dərmanlanması və payızlıq taxıl sahələrində gəmiricilərlə mübarizə aparılması məqsədilə tələb olunan miqdarda dərman preparatları gətirilmiş, əkindən əvvəl toxumlar dərmanlanmış və toxumçuluq laboratoriyasında analiz olunaraq sertifikat verilmişdir. Toxumların cücərmə qabiliyyəti 93-96 faizdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin 364 hektar ərazisində qapalı suvarma şəbəkəsinin qurulması münasibətilə kollektivi təbrik edərək demişdir: Ölkəmizdə gedən proseslərin tərkib hissəsi kimi muxtar respublikada da inkişaf, sabitlik və məskunlaşma təmin olunmuşdur. Əhali artımı nəzərə alınaraq müvafiq tədbirlər görülür, yeni torpaqlar əkin dövriyyəsinə qatılır, əkilən torpaqlardan aqrotexniki qaydalarda istifadəyə nəzarət və məhsuldarlıq artırılır. 2022-ci ildə ölkəmizdə torpaq mülkiyyətçilərinə subsidiyaların verilməsinin yeni qaydaları təsdiq olunmuşdur. Aid qurumlar yeni qaydaları əhaliyə izah etməli, subsidiyaların aqrotexniki qaydalara əməl edən şəxslərə veriləcəyi diqqətə çatdırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada məhsuldarlığın artırılması üçün meliorativ tədbirlər görülür, əhaliyə lazımi texnikalar alınıb verilir, maarifləndirmə işləri aparılır, keyfiyyətli toxum sortlarından istifadə olunur. Məqsəd ondan ibarətdir ki, əkilən torpaqlardan bol məhsul götürülsün. Əgər yaxşı məhsul götürə bilmiriksə, bu, muxtar respublikamızın kənd təsərrüfatı sahəsində

*Ardı 2-ci səhifədə*

geriləməsinə, məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Eyni zamanda əkinçi də qazanc əldə edə bilmir. Ona görə də həm dövlət, həm də əhali birgə səy göstərməlidir ki, əkilən torpaqlardan səmərəli istifadə olunsun, yüksək məhsul götürülsün.

Qeyd olunmuşdur ki, qapalı suvarma şəbəkəsinin qurulmasına 2 milyon manatdan artıq vəsait sərf olunub. Bu işlər ona görə həyata keçirilir ki, muxtar respublikamızda əhali artımı ilə bərabər, ərzaq artımı da həyata keçirilsin. Əgər əhali artımı varsa, deməli, ona uyğun kənd təsərrüfatı və digər sahələr də inkişaf etdirilməlidir. Bu işlər bundan sonra da davam etdiriləcəkdir. Kəngərli rayonunun Xok kəndindən başlamış Naxçıvan şəhərinin Qaraçuq kəndinə qədər olan, təqribən, 2 min hektara yaxın ərazidə də meliorativ tədbirlər aparılacaq və bu ərazilər də dövlət fondunda qalmaqla əhaliyə icarəyə veriləcəkdir.



"Həyata keçirilən tədbirlər ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində mümkün olmuşdur. Əgər ölkəmizdəki sabitlik, inkişaf və tərəqqi olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, muxtar respublikanın mövcudluğu dövründən bu ərazilər ilk dəfədir ki, əkin dövriyyəsinə qatılır. Çünki bu cür münbit torpaqların əkin dövriyyəsinə qatılması üçün ölkənin güclü iqtisadi imkanları olmalı idi. Bu gün ölkəmizin iqtisadi imkanları bu tədbirlərin görülməsinə imkan verir. Nəticədə, münbit torpaqlar əkin dövriyyəsinə qatılır ki, bu da ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkür etmiş, çəkilən zəhmətin hər bir muxtar respublika sakininin həyatında özünü göstərdiyini bildirmişdir.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisində iştirak edənlərə hədiyyələr təqdim etmiş və suvarma şəbəkəsini işə salmışdır.

Ali Məclisin Sədri ərazinin pasportlaşdırılması, payız suvarma mövsümünə başlanılması, toxumçuluq təsərrüfatında təbii gübrəyə üstünlük verilməsi, subsidiyaların verilməsinə nəzarət olunması, sifarişə uyğun kənd təsərrüfatı texnikalarının gətirilməsi, meliorasiya və irriqasiya işlərinin davam etdirilməsi və ərazidə yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

"Şərq qapısı" – 100

## Sovetlər dövründə nəşr olunan müstəqil qəzet

### Müstəqillik ideyaları, müstəqil dövlət quruculuğu prosesi kimi, müstəqil mətbuatın da əsası Naxçıvanda qoyulmuşdur

*1988-ci ildən etibarən Azərbaycanda baş qaldıran azadlıq hərəkatı milli şüur və təfəkkürdə bir sıçrayış yaratdığı kimi, xalqın əsas xitabət kürsüsü olan mətbuata da yeni ab-hava gətirir. Lakin uzun illər sovet senzurasının məngənəsində "boğulan" mətbuatın demokratikləşməsi, söz, mətbuat azadlığının formalaşması zaman və qətiyyət tələb edirdi. İftixarla demək olar ki, milli müstəqillik ideyaları, müstəqil dövlət quruculuğu prosesi kimi, müstəqil mətbuatın da təməli böyük dövlətçilik tarixinə malik Naxçıvan Muxtar Respublikasında qoyulmuşdur.*

1990-cı ilin yanvarında paytaxt Bakıda suveren, demokratik bir dövlət yaratmaq arzusu ilə ayağa qalxmış xalqın inam və iradəsini qırmaq, milli azadlıq hərəkatını boğmaq üçün keçmiş sovet ordusunun hərbi hissələri tərəfindən dinc əhalinin qətliamı törədildi. Rus-erməni qoşun birləşmələrinin Bakı şəhərində törətdiyi Qanlı Yanvar hadisələri yalnız yüzlərlə soydaşımızın qanının axıdılması ilə nəticələnmədi. Ermənipərəst sovet hökumətinin rəhbərliyi ilə hazırlanan plana Naxçıvanın ermənilər tərəfindən işğalı da daxil edilmişdi. Naxçıvanın vətənpərvər, qeyrətli oğulları canlarını düşmən qarşısında sipər edib yurdumuzu erməni işğalından xilas etməklə mənfur düşmənin Naxçıvana yiyələnmək arzusunu gözündə qoydu. Həmin dövrdə blokada şəraitində yaşayan diyarımız həm də azadlıq mübarizəsinin mərkəzinə, sonrakı illərdə – ümummilli lider Heydər Əliyevin burada siyasi fəaliyyətə başlaması ilə həm də milli müstəqillik hərəkatının idarəedici qüvvəsinə, siyasi beyin mərkəzinə çevrildi.

Zülm və əsarətə, haqsızlığa qarşı mübarizəyə qalxmış naxçıvanlıların tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Soveti 1990-cı il yanvarın 20-də Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında Qərar verdi. Qərar Naxçıvan televiziyası, eləcə də rabitə işçilərinin yaratdığı imkan vasitəsilə radio ilə orta dalğada beş dildə dünya ictimaiyyətinə çatdırıldı. Bu, tarixin 70 illik əsarətin buxovlarından xilas olub azadlıq ideyalarına qovuşmaq fürsətini layiqincə dəyərləndirmək cəhdi idi. Bir qrup naxçıvanlı ziyalı da bundan ruhlanaraq hadisələri obyektiv və operativ şəkildə geniş kütləyə çatdırmaq məqsədilə muxtar respublikanın rəsmi dövlət qəzeti olan "Şərq qapısı"nı müstəqil nəşr etdirmək qərarına gəldi. Qəzetin baş redaktoru və redaksiya heyəti mürəkkəb siyasi vəziyyətdə icazə və göstəriş olmadan muxtar respublikanın rəsmi mətbu orqanı "Şərq qapısı" qəzetini müntəzəm şəkildə müstəqil qəzet kimi nəşr etdirməyin mümkünsüz olduğunu yaxşı dərk edirdi. Lakin müstəqil dövlətdə azad yaşamaq ideyası, demokratiyaya olan təşnəlik bütün qorxu və tərəddüdlərə üstün gələrək hər cür təqib və məhrumiyyətlərə düçar olmaq riskini üstələdi. Bir qrup ziyalı, qələm sahibi böyük fədakarlıqla bu mühüm tarixi missiyanı, şərəfli və məsuliyyətli yükü öz üzərlərinə götürdü. Beləliklə, Fəsahət Əlioğlu, Əli Şamilov, Qahirə Hüseynova, Yadulla Musayev, Namiq Cəlilov, Afiq Haqverdiyev kimi vətən fədailərindən ibarət redaksiya heyəti Sovetlər Birliyində ilk müstəqil qəzet nəşr etməyə nail oldular.

"Şərq qapısı" qəzetinin 19 yanvar 1992-ci il tarixli 8-ci nömrəsində müstəqil qəzetin meydanagəlmə zərurəti haqqındakı xatirələrdən oxuyuruq ki, müstəqil qəzet nəşri ideyası Naxçıvan MSSR Ali Sovetinin "Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında" Qərarının "Şərq qapısı" qəzetinin 20 yanvar tarixli nömrəsində dərc edilməsi məsələsi ilə başlamışdır. Həmin tarixi qərarın qəbul edilməsindən bir saat sonra mətbəə işçiləri yığışır. Ali Sovetin qərarını Namiq Cəlilov, Yaşar Seyidov, Rafael İlyasov, Tofiq Seyidov tarixi qərarı rus dilinə tərcümə edirlər. Ancaq Ali Sovetin qərarını və əvvəlcədən nəzərdə tutulmuş materialları dərc etmək qərara alınır. Həmin gün növbəti nömrə üçün nəzərdə tutulan materialların içərisində Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi M.S.Qorbaçovun məruzəsinin də yer alması redaksiya rəhbərliyini qane etmədiyindən kiçik formatlı bir qəzet nəşr etdirmək qərarlaşdırılır. Birinci səhifə tərtib edilir, "Bütün ölkələrin proletarları, birləşsin!" şüarı və qəzetin adının yanında olan "Şərəf nişanı" ordeninin fotosu qəzetin başlığından götürülür, digər səhifələrdə də müvafiq material verilir. Müstəqil Naxçıvan Respublikasının ilk qəzeti "Şərq qapısı"nın ilk nömrəsi belə ərsəyə gəlir.

Bu məqamda bütünlükdə mətbuat tariximiz üçün çox mühüm əhəmiyyət kəsb edən bir tarixi faktın üzərində dayanmaq olduqca zəruridir. "Şərq qapısı" qəzetinin bəhs etdiyimiz ilk müstəqil nömrəsindən etibarən kommunist ideologiyasının, marksist nəzəriyyənin rəmzinə, SSRİ-nin rəsmi şüarına çevrilmiş, bir əsrə yaxın sovet mətbuatının atributu olan "Bütün ölkələrin proletarları, birləşin!" şüarı qəzetin başlığından götürülmüş, "Birlik və demokratiya uğrunda!" şüarı ilə əvəz olunmuşdur. Onilliklərboyu xalqlar həbsxanasına çevrilmiş, artıq məhvə məhkum olsa da, müstəmləkəçilik siyasətini heç bir vəchlə güzəştə getməyən sovet imperiyasının daha da azğınlaşdığı bir dövrdə SSRİ-nin əsas dövlət şüarından imtina etmək, milli birlik, demokratiya uğrunda mübarizə məqsədini bəyan etmək böyük hünər və cəsarət tələb edirdi. Digər tərəfdən 1971-ci ildə, "Şərq qapısı"nın 50 illik yubileyində təltif olunduğu, SSRİ-nin ən ali dövlət mükafatlarından biri –"Şərəf nişanı" ordeninin fotosu da qəzet başlığından götürülmüşdür. Qeyd edək ki, qəzetin belə bir yüksək mükafat ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin mətbuata böyük qayğısının təzahürü idi. Bu da tarixi qanunauyğunluq idi ki, mətbuatın məhz ümummilli liderin təşəbbüsü ilə verilən belə bir mükafatdan imtina etməsi sovet müstəmləkəçiliyinə kəskin etiraz olmaqla yanaşı, uzun illər Kommunist Partiyasına sədaqətlə xidmət etmiş, ən yüksək vəzifələrdə çalışmaqla sovet dövlətinin uğurlu inkişafına öz töhfəsini vermiş görkəmli dövlət xadimi Heydər Əliyevə qarşı sovet rəhbərliyinin ağır təqib və ittihamlarına da sərt və tutarlı cavab idi. Bir məsələni də nəzərə almaq lazımdır ki, belə bir qətiyyətli addım həmin dövrdə hətta ayrı-ayrı xalqların hələ totalitar sovet rejiminin məngənəsindən çıxa bilmədiyi, azərbaycanlıların Kommunist Partiyası sıralarından çıxıb partiya biletindən imtina etmələri geniş vüsət almadığı bir dövrdə, özü də Şərqin qapısı, Avropa ilə Asiyanın qovuşacağında yerləşən, Türkiyə və İranla həmsərhəd olan bir diyarda atılmışdı. Belə bir coğrafi strateji məkanda yerləşən Naxçıvan Muxtar Respublikasının mətbuat orqanı kimi "Şərq qapısı"nın dünyada yayılmaq imkanları geniş olduğu üçün geniş oxucu kütləsinə ideoloji təsir gücünə malik idi. Bu faktlar ilk müstəqil qəzetin muxtar respublikada nəşri kimi tarixi hadisənin siyasi əhəmiyyətini, dövlətçilik tariximizdəki rolunu bir daha təsdiq edir. Naxçıvan mətbuatının bu qətiyyətli addımı həm də 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi



qanlı faciə ilə əlaqədar ertəsi gün – yanvarın 21-də ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etdiyi günlərə təsadüf etmişdir ki, naxçıvanlıların, daha geniş mənada Azərbaycan xalqının ümummilli liderlə həmrəyliyinin ilk bariz nümunəsi idi.

On min tirajla nəşr olunan qəzetin ilk nömrəsi Naxçıvan Müstəqil Respublikasının, sonrakı 7 nömrəsi isə Naxçıvan Respublikasının mətbuat orqanı kimi oxuculara təqdim olunur. Uzun illər bəzi "ziyalılar" tərəfindən əyalət qəzeti kimi baxılan "Şərq qapısı" müstəqil mətbuat kimi tezliklə, bütövlükdə, 70 il əsarətə məhkum edilən, bütün hüquq və azadlıqları əlindən alınan, azadlıq ideyaları boğulan bir xalqın söz tribunasına çevrilir.

Müstəqil qəzetin 20 yanvar 1990-cı il tarixli ilk nömrəsində Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsi haqqında Qərar Azərbaycan və rus dillərində verilir. Həmin nömrədə iki gün ərzində aramsız davam edən Sədərək döyüşləri, Sədərək Şərab Zavodunun, mebel sexinin, yeni qəsəbənin və sair ərazilərin düşmən tərəfindən dağıdılması, şəhid verməyimiz haqqında məlumat da yer almışdır. Növbəti gün bazar gününə təsadüf etməsinə baxmayaraq, qəzetin ikinci nömrəsi fədakarlıqla nəşrə hazırlanır, dərc olunacaq materialları hazırlamaq çətin olmur. Çünki insanlar uzun illərdən sonra rus imperiyasının buxova çevrilmiş kommunist rejiminə qarşı nifrətlərini, azadlıq məramlarını ifadə etmək üçün söz tribunası qazanmışdılar. Nömrələr bir-birini əvəz etdikcə yazıların da mənası dolğunlaşır, qəzetin xətti müəyyənləşir, müəlliflərin sayı artırdı.

Formatının kiçik olmasına baxmayaraq, cəbhə xəttində, eləcə də Bakıda baş verən hadisələri tam dolğunluğu ilə operativ şəkildə təqdim edən gündəlik qəzetin ikinci nömrəsi Azərbaycan və rus dillərində "Dünya xalqlarına müraciət" ilə başlayır. Müraciətdə deyilir: *"Azərbaycan xalqı misligörünməmiş təcavüzə məruz qalmışdır. Naxçıvan Respublikasında hər an kütləvi qırğın baş verə bilər... Dünya dövlətləri, planetin bütün vicdanlı insanları, bizə kömək əlinizi uzadın! Azərbaycan türklərinin qanının axıdılmasına yol verməyin!" (22 yanvar 1990-cı il, № 2).*

Bir faktı da qeyd etmək zəruridir ki, hadisələrin gedişi ilə əlaqədar qəzetin, demək olar ki, hər nömrəsində müxtəlif müraciətlər verilmişdir: "Naxçıvan vətəndaşlarının BMT-nin üzvü olan dövlətlərə, İslam ölkələrinə, demokratik qruplara və təşkilatlara müraciəti" (20 yanvar 1990-cı il, № 1), "Naxçıvan Respublikası qadınlarının dünya qadınlarına müraciəti" (23 yanvar, 1990-cı il, № 3), "Naxçıvan şəhər qadınlarının Naxçıvan qarnizonu hərbçilərinin qadınlarına müraciəti" (24 yanvar 1990-cı il, № 4), "Naxçıvan ziyalılarının dünya xalqlarına müraciəti" (25 yanvar 1990-cı il, № 5), "Naxçıvan "Tövbə" cəmiyyəti Ağsaqqallar Şurasının müraciəti" (27 yanvar 1990-cı il, № 7). Azərbaycanda baş vermiş faciələrin əsl mahiyyətini, erməni şovinistlərinin törətdiyi cinayətləri dünyaya bəyan edən, asayişin və əmin-amanlığın bərpasına çağırış xarakterli bu müraciətlər muxtar respublikanın, həqiqətən də, o zamanlar milli müstəqillik uğrunda mübarizə mərkəzinə çevrilməsinin, naxçıvanlıların Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində həmrəylik nümayiş etdirməsinin bariz nümunəsidir. Bu müraciətlərin "Şərq qapısı"nda dərc olunması faktı isə özlüyündə qəzetin ictimai-siyasi dəyərini bir daha təsdiqləyir.

Müstəqil qəzetdə verilən hər bir material tarixi əhəmiyyəti ilə seçilir. Lakin onlardan bir neçəsini xüsusi qeyd etmək lazım gəlir. Belə yazılardan şair, publisist Hüseyn Razinin qəzetin ikinci sayında təqdim etdiyi "Xəyanət və qəddarlıq fəlsəfəsi" publisistik məqaləsi (22 yanvar 1990-cı il, № 2) xüsusi maraq doğurur. Şair siyasi hadisələr burulğanında boğulmağa məhkum olunmuş xalqın başına açılan müsibətlərdən bəhs edir, saxta sosialist inqilabının Azərbaycana gətirdiyi "bəhrələr"in hüquqsuzluq, zorakılıq,

*Ardı 3-cü səhifədə*

talançılıq və insan şəxsiyyətinə qarşı qəddarlıqdan ibarət olduğunu, sinfi mübarizə poladından tökülmüş mərmilərin bizə tuşlandığını yazır, Qorbaçovun quldur erməni mafiyasının çarmıxına düşdüyünü, qəddarlıq və xəyanətkarlıq uçurumuna yuvarlandığını cəsarətlə bəyan edir. Müəllif faciələrin təməlinin xəyanət, satqınlıq olduğunu düşünür və məqaləsini nikbin misralarla tamamlayır:

*Xəyanət nə qədər pərdələnsə də,*
*Onu, zülmət olub göydən ensə də,*
*Günəşin qüdrəti yerdən parçalar!..*

Qəzetdə müxtəlif imzalara da rast gəlmək mümkündür. Bu fakt bir daha onu təsdiqləyir ki, qəzetlə əməkdaşlıq edən İsa Həbibbəyli, Fərman Xəlilov, Muxtar Qasımzadə, Adil Qasımov, Cəfərqulu Paşayev, Ceyran xanım Nəbiyeva, Möhsün Şərifoğlu, Həmid Arzulu, Asim Yadigar və adlarını qeyd etmədiyimiz onlarla yaradıcı insan müstəqillik uğrunda gedən mübarizənin bayraqdarı olan mətbu orqanın ümummilli mənafeyə xidmət etmək arzusunu gerçəkləşdirən qüvvələrə çevrilmişdir.

Qəzetlə əməkdaşlıq edən hər bir qələm sahibi insanlarda mübariz hərbi-vətənpərvərlik ruhu formalaşdıran, dost və düşmənlərimizi yaxından tanıdan, erməni siyasətinin iç üzünü ifşa edən, eyni zamanda tutarlı tarixi, elmi araşdırmalara söykənən aktual yazılarla çıxış edirdi.

Qəzetin 27 yanvar tarixli 7-ci nömrəsində ziyalılardan Yavuz Axundov, İsa Həbibbəyli və Arif Əliyevin birgə təqdim etdikləri Məmməd Səid Ordubadinin "Qanlı illər" əsərindən Naxçıvanla bağlı bəzi məqamlar "Bu günlə səsləşən faciələr" sərlövhəli giriş məqaləsi ilə təqdim olunur. "Bir az da tarixdən" rubrikası ilə verilən materialın təqdimatında bildirilir ki, XIX əsrin sonları – XX əsrin əvvəllərindən Daşnaksutyun partiyasının rəhbərliyilə "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək uğrunda qanlı faciələr törədilmiş, bu tarixi həqiqətlər gizlədilmiş, üzə çıxarılanları millətçi damğası ilə ləkələmişlər. Bununla bağlı obyektiv elmi-publisist mənbələrdən biri də M.S.Ordubadinin "Qanlı illər" əsəridir. Əsərdən "İfadeyi-məram" adlı bir parçanı "Şərq qapısı" oxucularına təqdim edən ziyalılarımız yazırlar: *"Qanlı sənələr", bütövlükdə, Zaqafqaziya regionunda, daha çox Azərbaycandakı daşnak fitnəkarlığının səbəbləri, gedişatı və qanlı nəticələri haqqında hələlik ən irihəcmli və obyektiv əsərdir. Həmin əsər təkcə 1905-1907-ci illərin faciələrini realistcəsinə, tarixi faktlar əsasında əks etdirməsi ilə deyil, həm də son illərin dəhşətli faciələri ilə həmahəng olduğuna görə də aktual və müasir səslənir"*.

Qeyd edək ki, "Şərq qapısı"nda təqdim olunan parçalar 1911-ci ildə Bakıda əski əlifba ilə nəşr olunan "Qanlı illər"in 79 ildən sonra Azərbaycan mətbuatında ilk dəfə işıq üzü görməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Qəzetin müstəqil nömrələrində dərc olunan müsahibələr aktuallığı ilə xüsusi maraq kəsb edir. Azərbaycan SSR Xarici İşlər Naziri Hüseynağa Sadıqovla İran İslam Respublikası sərhəd zonasında yaşayanların gediş-gəlişlərinin sadələşdirilməsi ilə bağlı müsahibə (20 yanvar 1990-cı il, № 1) bu baxımdan maraq doğurur.

"Azərbaycan SSR-in mənafeyi naminə" sərlövhəsi ilə Azərinformun Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Hüquq şöbəsinin müdiri, Əməkdar hüquqşünas Abdulla İbrahimovdan aldığı müsahibə təqdim olunur. Mərkəzi informasiya agentliyinin SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərmanla bağlı *"Biz fövqəladə vəziyyət haqqında fərmanı muxtar vilayətə silah yeritmək sahəsində Ermənistan SSR-in ardı-arası kəsilməyən təcavüzkar hərəkətlərinin, habelə müəyyən rayonlara silahlı basqınlarının qarşısını almaq üçün bilavasitə təminat kimi qiymətləndirməliyik. Bir sözlə, fərmanın müddəalarının tamamilə və ciddiyyətlə həyata keçirilməsi, nəhayət, Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində sovet hakimiyyətinin sarsılmazlığını təsdiq etməli"* fikirlərinə "Şərq qapısı" redaksiyasının münasibəti belə olur: *"Bəli, məhz bugünkü hadisələrin məsuliyyəti Moskvanın verdiyi fərmanları mədh edən İbrahimovların üzərinə düşməlidir. Belə məddahlar xalqın nifrətinə layiqdirlər"*. `

"Biz sizinləyik" (21 yanvar 1990-cı il, № 2) adlı material da mühüm tarixi faktla diqqətimizi çəkdi. Gürcüstanın Axalkalaki şəhərindən olan, ordu sıralarında qulluq edən 4 gürcü gənci Culfaya gətirilərək sərhədə toplayıb, onları Naxçıvanda yaşayan dinc əhaliyə qarşı silahlandırmaq istəsələr də, onlar mətbuata müsahibələrində bildirmişlər ki, *"Biz öz milli bütövlüyü uğrunda ədalətin bərpa olunmasını tələb edən Azərbaycan xalqının üstünə silah qaldırmaq istəmirik"*. Bu, gürcü xalqının ədalətli, humanist, sülhsevər mövqeyinin bir ifadəsi kimi maraq doğurur.

"Şərq qapısı"nın həmin nömrələrini araşdırarkən məlum olur ki, bu mətbuat orqanı müstəqil qəzet kimi o zaman sovet hökumətinin "parçala və hökm sür!" siyasətinin ifadəsi olaraq mərkəzi kütləvi informasiya orqanlarının Azərbaycana qarşı qərəzli, qeyri-obyektiv, təxribatçı informasiya yayımına qarşı cəsarətlə mübarizə aparan bir mətbuat olmuşdur. Xüsusilə də Mərkəzi televiziyanın "Vremya" ("Zaman") informasiya proqramının qərəzli süjetlərinə, burada səslənən yalan və böhtan dolu informasiyalara qarşı təkzib xarakterli materiallar, demək olar ki, qəzetin hər nömrəsində dərc olunmuşdur. "Zaman"da Sədərəkdə baş verən hadisələrdə Azərbaycan xalqının günahlandırılması və qəsbkar kimi təqdim etməyə çalışılması, Azərbaycan xalqına böhtan yağdırılmasından bəhs olunur (21 yanvar 1990-cı il, № 2). İlqar Babayevin rus dilində dərc olunan "Qnusnaya loj" ("Ağ yalan") məqaləsində (21 yanvar 1990-cı il, № 2) "Zaman" proqramında Nazaryanın müsahibəsində Naxçıvan MSSR sərhədlərindən azərbaycanlıların ermənilərə hücumu kimi böhtan və iftirası təkzib və tənqid olunur.

Samir imzalı müəllifin "Özünə sadiqsən, "Zaman" (26 yanvar 1990-cı il, № 6) məqaləsində isə qeyd olunur ki, Mərkəzi televiziya Bakının işğalını Ermənistan-Azərbaycan münaqişəsini sabitləşdirmək addımı kimi təqdim edir. Müəllif Azərbaycan paytaxtına xarici müxbirlərin heç birinin buraxılmadığını yazır. Azərbaycan SSR Ali Sovetinin sessiyası, Liqaçov və Razumovskinin Bakıya gəlməsi, Naxçıvan MSSR Ali Sovetinin məlum qərarı haqqında "Zaman"da məlumat verilməməsi isə qeyri-obyektivlik kimi qınanılır.

Peşəkar yazıçı-jurnalist Möhsün Şərifoğlu "Vətən candan əzizdir" adlı publisistikasında (22 yanvar 1990-cı il, № 3) yazır ki, Mərkəzi televiziya Bakıdan köçən ermənilərə yas tutur. Sonra müəllif qeyd edir ki, Dağlıq Qarabağ Xüsusi İdarəetmə Komitəsinin ləğvi ilə bağlı Azərbaycan Televiziyasının Naxçıvan müxbirinə müsahibə versə də, "Günün ekranı" xəbərlər proqramında getməyib. Minlərlə insanın iştirak etdiyi sərhəd hərəkatının iştirakçıları "Zaman" proqramında sərxoş, narkoman kimi qələmə verilərək xalqımıza iftira və böhtan atılır, mərkəzi mətbuatda Azərbaycan xalqının əleyhinə yönəlmiş qərəzli materiallar dərc olunur.

Bütün bunlar təsdiq edir ki, "Şərq qapısı" əməkdaşları, ziyalılarımız muxtar respublikada, blokada şəraitində, xüsusilə də informasiya blokadası şəraitində yaşayıb-yaratsalar da, ölkədə baş verən hadisələri müntəzəm izləmiş bununla yanaşı, həm də rusdilli kütləvi informasiya vasitələrini yetərincə izləyib analitik təhlil etmək qabiliyyətinə malik olmuş, eyni zamanda bir peşəkar kimi jurnalistikanın prinsiplərinə dərindən bələd olaraq həmkarlarını da obyektivlilik, qərəzsizlik, fakta dəqiqlik kimi prinsipləri qorumağa çağırmışlar.

Cəmi səkkiz nömrəsi işıq üzü görən qəzetdə təqdim olunan mövzuları janr etibarilə də qruplaşdırmaq mümkündür: məqalə, müsahibə və xəbərlər, münasibət, müraciətlər, tarixi arayış, dünya mətbuatından səhifələr, teleqramlar və sair.

25 yanvar 1990-cı il tarixli 5-ci nömrədə dərc olunan, cəbhədən gələn məktubda, hətta döyüş bölgəsində müstəqil qəzetin böyük səbirsizliklə gözlənildiyi qeyd edilir, qəzetin nəşri birlik və demokratiya uğrunda atılmış ilk addım kimi dəyərləndirilir. Sovet ideologiyasının acı nəticələrini öz tarixi-fəlsəfi düşüncələri ilə izah etməyə çalışan müəllif, atışma sədaları altında fikrini belə yekunlaşdırmağa məcbur olur: *"Hava telefonumuzun cingiltili zəngi məni bu ağır düşüncədən ayırdı. Müşahidəçimizin təlaşla dediyi "qarşı tərəfdən avtomat səsləri eşidilir" sözlərini eşitcək, hamı müdafiə mövqeyinə tələsdi"*.

Müstəqil qəzet, mühüm siyasi-tarixi prosesləri təkcə mətnlərin dili ilə deyil, mövcud nəşriyyat-poliqrafiya imkanları çərçivəsində fotojurnalistikanın da gücündən, vizual təqdimat funksiyasından istifadə etməklə də oxuculara çatdırmışdır. Qəzetin fotomüxbiri Aftandil Ağalarovun lentə aldığı maraqlı fotoşəkillər qəzeti oxunaqlı etməklə bərabər, eyni zamanda şəkilaltı yazıları ilə də diqqəti cəlb edir: *"30 ilə yaxındır, fotoaparat əlimdədir... Saysız-hesabsız, cürbəcür məqamları obyektivə almışam... Bu illər ərzində obyektivi çəkəcəyim süjetə, çəkəcəyim ana tuşlarkən bir dəfə də olsun, əllərim titrəməyib. Tale mənə ömrümün bu qışında ürəyimi didib-parçalayan, gözlərimə yaş gətirən bu anları çəkməyi də məsləhət gördü... Şəkillərin əksi pis çıxarsa, bağışlanmağımı xahiş edirəm. Çünki onların aşkarlayıcı dərmanına göz yaşları qarışıb"* (*26 yanvar 1990-cı il, № 6 )*.

27 yanvar 1990-cı il tarixli 7-ci nömrədə isə növbəti foto belə bir təqdimatla verilmişdir: *"Ermənistanda çəkilmiş foto: "Erməni daşnaklarının tör-töküntüləri olan bu dığalar havadarları tərəfindən hədiyyə aldıqları silahlarla çox da öyünməsinlər. Onlar gec-tez haqqın-ədalətin qarşısında cavab verməli olacaqlar"*. Bundan başqa, 20 Yanvar faciəsi ilə bağlı tarixi fotolar, Sədərək şəhidlərinin fotoları da qəzetdə yer almışdır.

Müstəqil qəzetin 26 yanvar tarixli 6-cı sayında redaksiya heyətinin oxuculara qəzetlə əməkdaşlıq etmələri üçün dərc olunan müraciəti bu arzu ilə yekunlaşırdı: *"Çalışaq ki, fidan "Şərq qapımız" qollu-budaqlı, köklü-köməcli çinara dönsün. Bu çinarın təzə-tər yarpaqları güneyli-quzeyli Azərbaycanımıza həzin-həzin, kövrək-kövrək nəğmələr oxusun. Azadlıq və birlik nəğmələri..."*

Təəssüf ki, yaradıcı heyətin qəzetlə bağlı bəslədiyi bu böyük ümidlər yarımçıq qalır. Rus əsgərlərinin Naxçıvana doğru hərəkət etdiyi haqqında məlumatların yayılmasına baxmayaraq, tanınmış jurnalist Əli Şamilovun mənəvi dəstəyi ilə əməkdaşlar bütün gecəni yuxusuz qalsalar belə, qəzetin 8-ci nömrəsini dərc etməyə nail olurlar. Lakin 28 yanvar 1990-cı il Naxçıvanda ilk müstəqil qəzetin nəşr olunduğu son tarixi gün olur.

Bu haqda qəzetlə qısa müddətdə əməkdaşlıq edən Namiq Cəlilov 2 il sonra "Şərq qapısı" qəzetində yazırdı: *"Şərq qapısı"nın 8-ci nömrəsinə növbətçilik etmək mənə həvalə olunmuşdu. Ağlıma belə, gəlməzdi ki, bu qəzetin son nömrəsi olacaq" (19 yanvar 1992-ci il, № 8)*. Namiq Cəlilov xatirələrində yazır: *"Mətbəə işçiləri Lətafət və Mətanətin böyük səyi nəticəsində nömrəni çapa hazırlaya bildik. Səhərisi redaksiyada yığıncaq oldu. Partiya komitəsindən gəlmiş nümayəndə burada çıxış etdi. Dedi ki, "Şərq qapısı" yenidən partiya və hökumətin orqanı kimi çıxmalıdır. Əvvəlki kimi böyük formatla, "Şərəf nişanı" ilə. Mətbəənin imkanı olarsa, "kiçik" qəzeti də paralel şəkildə çıxarmaq olar. Mətbəənin imkanı, əlbəttə, olmadı. "Böyük qəzet" yenidən fəaliyyətə başladı. Köşklərin qarşısında isə növbələr qısaldı. Naxçıvanlılar az müddətdə oxucu məhəbbəti qazanmış "kiçik qəzet"i gözləyirdilər"*.

Naxçıvan Respublikasının müstəqillik mövcudiyyətinə son qoyulması istiqamətində aparılan siyasət, cərəyan edən siyasi hadisələr, təbii ki, mətbu orqanın nəşrini də dayandırır. Lakin Sovetlər Birliyində müstəqil qəzet kimi nəşr olunan "Şərq qapısı" qəzetinin səkkiz nömrəsi qanla yazılan qələmin, fədakar qələm sahiblərimizin milli cəsarət və təşəbbüskarlığının, əvəzsiz əməyinin, yuxusuz gecələrinin, bəhrəsi kimi tarixə çevrilir.

*1990-cı ilin iyulunda dahi öndər Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı, burada Ali Məclisin Sədri vəzifəsində işləməsi, Azərbaycanın gələcək müstəqillik müqəddəratını həll etmək baxımından tarixə qızıl hərflərlə yazılmış siyasi fəaliyyəti muxtar respublikada jurnalistikanın, eləcə də "Şərq qapısı" qəzetinin demokratik prinsiplər, milli ideologiya üzərində inkişafına rəvac verir. Müstəqillik əldə etdiyimiz 30 il ərzində ulu öndərin əsasını qoyduğu söz və mətbuat azadlığı, media siyasəti, kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı muxtar respublikada da uğurla həyata keçirilir. Bunun ən bariz nümunəsi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncam imzalaması, bununla muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısını bir daha əyani şəkildə göstərməsi, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm rolunu yüksək qiymətləndirməsidir. Bu Sərəncam həm də qəzetin nəşri tarixində, "Şərq qapısı"nın müstəqillik, demokratiya və Azərbaycançılıq ideologiyasının əsl təbliğatçısına çevrilməsində müstəsna xidmətləri olan jurnalistlərimizin, ziyalılarımızın tarixi fəaliyyətinə verilən ən yüksək dəyərdir.*

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola salınırlar

Ölkə Prezidenti cənab İlham Əliyevin cari il sentyabrın 3-də imzaladığı Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncamına əsasən 2003-cü ildə doğulan və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olan, habelə 1986-2002-ci illərdə doğulan, yaşı 35-dək olan, Azərbaycanın Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən Azərbaycan vətəndaşları 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılır. Bununla yanaşı, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları da 2021-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılır.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində də çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınmasına başlanılıb.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi polkovnik Mirzə Cəlilov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək Şanlı Zəfər tariximiz olan 44 günlük Vətən müharibəsindən söhbət açıb. Xidmət rəisi qələbənin əhəmiyyətini bir daha vurğulayıb, ordumuzun şəxsi heyətinin əksəriyyətini gənclərin təşkil etdiyini və onların böyük qüvvə olduğunu, döyüş meydanında öz fədakarlıqları, igidlik və şücaətləri ilə Azərbaycan gənclərinin yenilməzliyini, mübarizliyini, qorxmazlığını, Vətənə, dövlətə və Ali Baş Komandana sadiqliyini sübut etdiklərini diqqətə çatdırıb.

Xidmət aparatının Həqiqi hərbi xidmətə çağırış və çağırışqabağı hazırlıq şöbəsinin rəisi, mayor Vüsal Əliyev, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov və təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək çağırışçılara torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmağı, hərbi xidmət dövründə nizam-intizamlı olmağı, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnməyi tövsiyə ediblər.

Çağırışçı Cavid Babayev bu gündən Azərbaycan əsgəri adını daşıyacağı üçün fəxr hissi keçirdiyini bildirib.

Çağırışçılar həkim komissiyasından keçdikdən sonra yola salınıblar.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Kənd sakinləri ilə muzey əməkdaşlarının görüşü olub

*Culfa rayonunun Gülüstan kənd mərkəzində rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşlarının kənd sakinləri ilə görüşü təşkil edilmişdir.*



Tədbir 27 avqust 2021-ci il tarixdə Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muzeylərin əhali ilə işə diqqət yetirməsi, kənd mərkəzlərində görüşlərin keçirilməsi, tariximizlə bağlı məlumatların, eləcə də eksponatların qorunması haqqında sakinlərin maarifləndirilməsi barədə verdiyi tapşırıqların icrası ilə əlaqədar keçirilmişdir.

Tədbiri giriş sözü ilə Culfa Rayon Mədəniyyət Şöbəsinin müdiri Pərvin Həsənov açmış, rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Gülər Əhmədova çıxış etmişdir.

Qeyd olunmuşdur ki, muzeylər tarixin müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin, hətta minilliklərin müxtəlif hadisələrindən xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən və nümayiş etdirən maddi mənəvi xəzinə hesab olunur. Bu gün fəaliyyət göstərən muzeylərimiz cəmiyyətin inkişafında, maddi mənəvi irsin, mədəni dəyərlərin və eləcə də xalqın tarixi yaddaşının qorunub saxlanmasında mühüm rol oynayır. Muxtar respublikamızda muzeylərimiz dövlət qayğısı ilə əhatə olunub. Müstəqillik illərində müxtəlif profilli belə mədəniyyət müəssisələri yaradılıb, onların maddi-texniki bazası gücləndirilib.

Sonda muzeylərdən bəhs edən sənədli filmə baxış olub.

Qeyd edək ki, Şahbuz, Babək və Ordubad Rayon Tarix-Diyarşünaslıq muzeylərinin əməkdaşlarının da sakinlərlə görüşləri keçirilib. Belə tədbirlərin keçirilməsi gələcəkdə də davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Müstəqillik, vətənpərvərlik ideyalarının poetik tərənnümçüsü



Xalq şairi Məmməd Araz
Rəssam: Həbibə Allahverdiyeva

*O, Vətənin vurğunu idi. Bu müqəddəs və əvəzedilməz varlıqla nəfəs alır, ürəyi ilə yazdığı şeirlərini doğma Vətəninə, onun daşına, qayasına, təbiətinə həsr edirdi. Sizcə sevməyən sevilə bilərmi? O, alovlu bir vətəndaş kimi Vətənini sevirdi. Ona görə də el məhəbbətini çoxdan qazanmışdı. Onun şeirləri Vətəninə bəstələnən məhəbbət nəğmələri tək dilimizin əzbəri, könlümüzün həsrətidir. O, Azərbaycanın Xalq şairi, Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, tərcüməçi, publisist, hər kəlməsini, hər misrasını çox sevdiyimiz MƏMMƏD ARAZdır.*

Görkəmli dövlət xadimi ulu öndərimiz Heydər Əliyev bu böyük şairin Vətən və xalq qarşısındakı xidmətlərini qiymətləndirərək "İstiqlal" ordeninə layiq görərkən deyib: – **"Mən ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk "İstiqlal" ordeninə layiq görülmüş şəxsiyyətlər Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerlərini tutacaqlar".** Bəli, Məmməd Araz Azərbaycanda ilk dəfə "İstiqlal" ordeninə layiq görülən, ədəbiyyatımızda, mədəniyyətimizdə yüksək yer tutan şairlərimizdən biri olub. Bu vətənpərvər şairin yaradıcılığında misra-misra əksini tapmış milli ruh, istiqlal duyğusu müstəqillik uğrunda mübarizəmizə böyük təkan vermiş, vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapmışdır. Məmməd Araz poeziyasını doğma Azərbaycan torpağından, Araz çayından ayrı təsəvvür etmək olmaz. Xalqımız, torpağımız, təbiətimiz haqqında yazılan şeirləri oxuyanda hamısında eyni hissləri – oxşarlıq, doğmalıq, yaxınlıq, istilik duyursan, sanki indinin, bu dəqiqənin məhsuludur, o qədər yeni və təravətlidir ki... İncə və zərif misralarda Vətənin dağı, daşı, qayası, sanki dil açıb danışır, torpağın, əlvan rəngli gül-çiçəklərin, çöl-çəmənlərin ətri insanı bihuş edir. Həyatın rəngləri ilə zəngin olan bu poeziya gözəl mənzərələrlə xəyalımızda canlanır. İnsan nəfəsi verilən adi qaya da, daş da şair üçün doğmadır, əzizdir:

*Onda Vətən sanar məni –*
*Bir balaca Vətən daşı.*
*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı...*

Vətən şairi, Araz şairi hələ sovetlər dövründə çoxlarının cəsarət edə bilmədiyi parçalanmış Azərbaycanın səsini, xalqımızın taleyüklü məsələlərini vətəndaş yanğısı ilə qələmə alıb. Qələminin qüdrəti ilə qanadlanan hədsiz Vətən sevgisi hamımızın könlündə "Vətən nəğməsi"nə çevrilib. Vətənpərvərlik hisslərini səmimiyyətlə qələmə alan şairin böyük təsir gücünə malik sənət əsərləri bu gün də yaşayır. Şairin "Ayağa dur, Azərbaycan", "Ata millət, ana millət, ağlama", "Bizi Vətən çağırır", "Əsgər oğul", "Kəlbəcər qaçqınlarına", "Ulu şahım, qılıncına söykənim mən" və başqa əsərləri 1988-1990-cı illərdə, milli müstəqillik uğrunda aparılan mücadilə dönəmində böyük mənəvi təkan rolunu oynayıb. Araz mövzusu ilə bir çox milli məsələləri işıqlandırdığı kimi, XX əsrin sonlarında xalqımızın bəxtinə yazılan Qarabağ dərdini, qaçqınlıq, köçkünlük faciəsini yüksək vətənpərvərlik hissi ilə işıqlandırıb. Onun bu qəbildən olan şeirləri bir ideala – Azərbaycanın bütövlüyü və azadlığı idealına xidmət edib.

Son 30 ildə bədnam qonşularımızın taladığı qədim torpaqlarımız uğrunda müharibələrdə Məmməd Araz şeirləri əsgərlərimizə güc verib, onları qəhrəmanlığa, qələbəyə ruhlandırıb. 90-cı illərin əvvəllərində "Ayağa dur, Azərbaycan!" şeiri milli azadlıq himninə çevrilib:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri biz hər şeyi bölə billik!*
*Səndən qeyri biz hamımız ölə billik!..*
*Haqq yolunu ayağına dolaq elə,*
*Bayrağını Xəzər boyda bayraq elə.*
*Enməzliyə qalxmış olan bayrağını!*
*Azərbaycan, Azərbaycan, Azərbaycan*
*bayrağını!*

Bu şeir görkəmli şairin torpaqlarımızın işğalından sonra Azərbaycanı, onun cəsur övladlarını mübarizəyə, qələbəyə səsləyişidir, həqiqi vətəndaşın harayıdır. Ona görə də dillər əzbəri olub, ürəklərə yol tapıbdır. Məhz belə Vətən nəğmələri ilə illərdir, yadelli tapdağında qalan torpaqlarımız 44 gündə mərd, vətənpərvər oğulların sayəsində işğaldan azad edildi, İkinci Qarabağ müharibəsində böyük tarixi Qələbə qazandıq...

Məmməd Araz yaradıcılığı və bədii düşüncəsində Azərbaycan bir dünyadır. Şair "Azərbaycan – dünyam mənim" şeirində bu dünyanı belə mənalandırır:

*Azərbaycan – qayalarda*
*bitən bir çiçək,*
*Azərbaycan –*
*çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı*
*vəsf eləyərək,*
*Azərbaycan dünyasından*
*baxar dünyaya.*

Məmməd Araz doğma vətəni Azərbaycanla nəfəs alan vətəndaş şair, görkəmli söz ustadıdır:

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim,* – deyən şairin misraları vətəndaşlıq hisslərinin özünəməxsus poetik dillə ifadəsidir.

Araz mövzusu şairin yaradıcılığında əsaslı, aparıcı yer tutur. "Qələm gəldi əlimə – Araz gəlir dilimə", – deyən ədib Arazı özünə təxəllüs seçir. Şairin "Arazın nəğməsi", "Bu gecə yuxumda Arazı gördüm", "Araz üstə çinar gördüm", "Yenə Arazı gördüm", "Arazın işıqları", "Mən Araz şairiyəm" və başqa şeirlərində, "Araz axır" poemasında Vətənin tarixi, taleyi vətəndaş şairin nisgili, qəlb yarası, böyük Azərbaycançılığı özünə yer tapır.

Ön cəbhədə əsgərlərimizlə görüşən şair "Vətən əsgəri adını şərəflə daşımaq hər igid əsgərin ən ülvi arzusu olmalıdır" deməklə onlara öz tövsiyəsini verir. Məmməd Araz "Əsgər məktubu" şeirində yazır:

*Əsgər məktubunda torpaq göyərir,*
*Meşələr uzanır üfüqlərəcən.*
*Əsgər məktubunda bir dağ göyərir –*
*Ətək də Vətəndir, zirvə də Vətən.*

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Məmməd Arazın şeirləri, şübhəsiz ki, çoxdur. Amma "Dünya sənin, dünya mənim" kimisi yoxdur..."***

*Bu get-gəllər bazarına dəvədi dünya,*
*Bu ömür-gün naxışına həvədi dünya,*
*Əbədiyə qəh-qəh çəkər əbədi dünya –*
*Dünya sənin dünya mənim, dünya heç kimin...*

Şair "Dünya sənin, dünya mənim" deyib, – insanın dünya qarşısında məsuliyyətindən danışır. Bu dünya hamıya məlum və yaxud naməlum olsa da, hamımızın onu itirməkdən qorxduğu aşkardır. Digər dünya bir tərəfə, Məmməd Araz dünyası gözəl dünyadır, Vətənə, təbiətə, insana, anaya, qadına, dosta məhəbbət dünyasıdır. O, "Dost" şeirində yazır:

*Hər çətin anımda kəsin yanımı,*
*Axın ürəyimə gülüşlə, sözlə.*
*Mən öz varlığımı, öz ünvanımı*
*Tapıram hər yeni gəlişinizlə.*

Məmməd Araz böyük şairdir. O, "Xalq şairi" fəxri adını təsadüfən almayıb. Bütün həyatıboyu Vətənini sevib, xalqını sevib. Ürəkdən sevib, məhz buna görə də, xalq da onu sevib və sevəcək də. Məmməd Arazın Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətləri hər zaman yüksək qiymətləndirilib. Görkəmli sənətkarımızın xatirəsi əbədiləşdirilib, yubileyləri keçirilir. Muxtar respublikamızda da böyük şairin şəxsiyyətinə və sənətinə daim ehtiram göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" 2013-cü il 8 iyun tarixli Sərəncamı yaradıcı ziyalılarımız, xalqımız tərəfindən dərin minnətdarlıqla qarşılanmış, görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi və təbliği işinə mühüm töhfələr vermişdir. Bu gün Şahbuza yolu düşənlər şairin doğulub boya-başa çatdığı Nursu kəndindəki ev-muzeyini ziyarət edirlər.

*Qara cilddə çap eləyin kitabımı*
*Məndən sonra –*
*Tünd-qara.*
*Fəqət soy – adımı*
*Süd rəngiylə həkk edin ora.*
*Daha nə deyim,*
*Qoy mən*
*Qara torpaq üstündə*
*Üfüqə doğru gedən*
*Ağ yola bənzəyim* – Böyük şairimizin "Vəsiyyət"ində yazdığı bu misralara cavabımız birdir: – Məmməd Araz əbədidir!..

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Xalq şairi Məmməd Arazın anadan olmasının 88-ci ildönümü şairin ev-muzeyində qeyd edilib



Dünən Xalq şairi Məmməd Arazın ev-muzeyində dahi şairin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru Əzizə Süleymanova bildirib ki, Xalq şairi Məmməd Araz çoxcəhətli və zəngin ədəbi irsinə, sənətkarlıq qüdrətinə görə Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və mövqeyi olan söz ustasıdır. Dahi şairin yaradıcılığının bütün dövrlərdə aktual olduğu, dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirildiyi, gələcək nəsillərə nümunə olan şairin ölməz irsinin öz əhəmiyyətini heç bir dövrdə itirmədiyi qeyd edilib.

Tədbirdə Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev "Məmməd Araz yaradıcılığına və sənətinə dövlət qayğısı", Naxçıvan Dövlət Universitetinin dosenti Seyfəddin Eyvazov "Məmməd Araz qafiyəsinin semantik tutumu", AMEA Naxçıvan Bölməsinin şöbə müdirləri – filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Məmməd Araz yaradıcılığında Araz: milli tale, istiqlaliyyət məsələsi kimi", filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov "Məmməd Araz irsində milli-mənəvi dəyərlər", bölmənin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovanın "Görkəmli şairin şeirlərində xalq yaradıcılığı" mövzularında çıxışları dinlənilib. Çıxışlarda qeyd olunub ki, ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Xalq şairi Məmməd Arazın yaradıcılığına daim yüksək qiymət verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" 2013-cü il 8 iyun, "Şairin Ev Muzeyinin yaradılması haqqında" 2013-cü il 28 iyun tarixli sərəncamları bu diqqət və qayğının bariz təzahürüdür. Vurğulanıb ki, Xalq şairi Məmməd Araz müasir dövr Azərbaycan lirikasının poetik zirvəsini fəth edən və bu zirvədə əbədi yaşamaq haqqı qazanan qüdrətli şair, publisist, filosof və sözün həqiqi mənasında, layiqli vətəndaşdır.

Daha sonra şairin yaxın qohumlarından biologiya üzrə fəlsəfə doktoru, dosent Namiq Abbasov və Nursu kənd tam orta məktəbinin müəllimi Elvin İbrahimov şairlə bağlı xatirələrini bölüşüb.

Bədii hissədə Nursu kənd tam orta məktəbi şagirdlərinin ifasında şairin şeirləri qiraət olunub, Şahbuz Rayon Uşaq Musiqi Məktəbinin sazçalanlar ansamblı tərəfindən şairin şeirlərinə yazılmış mahnılar ifa olunub.

Sonda muzeyin ekspozisiyasına baxış keçirilib.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti*

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib.*

## Komandir hazırlığı məşğələləri keçirilib

Komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin komandir keyfiyyətlərinin əsasını təşkil edən mənəvi-psixoloji dayanıqlılığın qorunmasına və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə yönəldilib.



Zabitlərə sıra, kəşfiyyat, taktiki, topoqrafiya və rabitə hazırlığından məşğələlər keçirilib, bölmələrdə texnikalara mövsümü texniki qulluğun göstərilmə qaydaları çatdırılıb.

Komandir hazırlığı məşğələlərinə cəlb edilmiş zabitlərin fiziki hazırlıq və müxtəlif ixtisaslar üzrə bilik və bacarıq səviyyələri yoxlanılıb.

Məşğələlərin yekununda bildirilib ki, zabitlərin bölmələri idarəetmə vərdişlərinin təkmilləşdirilməsində, müxtəlif silah sistemlərindən və silahlanmaya yeni daxil edilmiş hərbi texnikalardan istifadə bacarıqlarında, məşğələ və təlimlərin keçirilməsi üzrə hazırlıqlarında müsbət nəticələr əldə edilib.

Kənan CƏLİLOV

## Futbol mütəxəssisləri Naxçıvanda

*Cari ildə Milli Komandaların Məşq Mərkəzində başlayan qapıçılar üzrə məşqçilər üçün Avropa Futbol Birliyi İttifaqının (UEFA) "B" kateqoriyalı məşqçi kursu yekunlaşmaq üzrədir.*



UEFA-dan Mart Poom və yerli təlimatçılar Faiq Əzizov, Üzeyir İbrahimov və Vitali Kovalyovun rəhbərliyi ilə keçirilən kursda Naxçıvan Futbol Federasiyasının qapıçılarla iş üzrə koordinatoru, eyni zamanda "Araz-Naxçıvan"ın qapıçı məşqçisi Amil Ağacanov da iştirak edib. Son modul başa çatdıqdan sonra kursda iştirak edən məşqçilərdən nəzəri və praktik imtahanlar götürülüb. Naxçıvan Muxtar Respublikasına gələn Faiq Əzizov və Üzeyir İbrahimov komandanın məşq prosesini, eyni zamanda qapıçı-məşqçi Amil Ağacanova imtahanda verilən tapşırıqları praktik olaraq izləyiblər. Müvafiq qeydlərdən sonra Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında nəzəri imtahan keçirilib. İmtahan nəticələri növbəti ay açıqlanacaq.

İmtahandan sonra Faiq Əzizovun fikirlərini öyrəndik: "Burada olarkən komandanın, eləcə də Futbol Federasiyasının məşq bazaları ilə tanış oldum, məşqi izlədim. Hər şey mükəmməl təşkil olunub. Naxçıvanda futbol komandalarının məşq etməsi üçün hər cür şərait yaradılıb. Bundan gənc məşqçilər, eyni zamanda futbola yeni qədəm qoyan uşaq və yeniyetmələr maksimum yararlanmalı, gələcək karyeralarını sağlam bünövrə üzərində qurmalıdırlar. Uzun zamandır, Naxçıvana gəlmirdim. Son 20 ildə bura tam olaraq müasir standartlara cavab verəcək şəkildə quraşdırılıb".

Qeyd edək ki, imtahanı uğurla başa vuran məşqçilərə UEFA-nın "B" kateqoriyalı məşqçi lisenziyası veriləcək.

✍ Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 853